

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 143 (21.044)

31 iyul 2014-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Acarıstan Muxtar Respublikasında işgüzar səfərdə olmuşdur

İyulun 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Gürcüstanın Acarıstan Hökuməti Sədrinin dəvəti ilə Batumiyə gəlmişdir.

Batumi Beynəlxalq Hava Limanında Ali Məclisin Sədrini Acarıstan Muxtar Respublikası Hökumətinin Sədri Arçil Xabadze, Azərbaycanın Acarıstan Muxtar Respublikasındakı Baş konsulu Hüseyn Nəcəfov və digər rəsmi şəxslər qarşılamışlar.

## Acarıstan Muxtar Respublikası Hökumətinin Sədri ilə görüş



Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Acarıstan Muxtar Respublikası Hökumətinin Sədri Arçil Xabadzenin görüşü olmuşdur.

Acarıstan Muxtar Respublikası Hökumətinin Sədri Arçil Xabadze hökumət binasının önündə Ali Məclisin Sədrini qarşılamışdır.

Arçil Xabadze dəvətini qəbul edib Acarıstan Muxtar Respublikasına səfər etdiyinə görə Ali Məclisin Sədrinə təşəkkürünü bildirmiş, ölkələrimiz, eləcə də hər iki muxtar respublika arasındakı əlaqələrin inkişafının əhəmiyyətini diqqətə çatdırmışdır. Qeyd olunmuşdur ki, hazırda Acarıstan Muxtar Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasındakı əlaqələr bir çox istiqamət üzrə uğurla inkişaf edir. Təhsil, səhiyyə, nəqliyyat-ticarət və digər sahələrdəki səmərəli əməkdaşlıq mühüm əhəmiyyətə malikdir.

Qarşılıqlı səfərlərin uğurlu nəticələr verdiyini vurğulayan Arçil Xabadze gələcəkdə əlaqələrin müxtəlif istiqamətlər üzrə inkişafı üçün potensialın olduğunu bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Ali Məclisi və hökuməti adından Acarıstan Muxtar Respublikasının əhalisinə, bütün gürcü xalqına ən xoş arzularını çatdıraraq demişdir: “Əsası 2012-ci ildə qoyulmuş əlaqələrimizin hazırkı səviyyəsi bizdə məmnunluq doğurur. 2012-ci ilin yanvar və iyun aylarında hər iki tərəfdən rəsmi nümayəndə heyətlərinin qarşılıqlı səfərləri olmuş, “Azərbaycan Respublikasının Naxçıvan və Gürcüstanın Batumi şəhərləri arasında Qardaşlıq və Əməkdaşlığa dair Memorandum” imzalanmışdır. Naxçıvan Muxtar Respublikası ilə Acarıstan Muxtar Respublikası arasında əlaqələr hər iki tərəfin səyləri ilə ilbəil genişlənir. Hazırda ticarət-iqtisadi, səhiyyə və təhsil sahəsində əlaqələrimiz əməkdaşlığımızın böyük potensiala malik olduğunu göstərir. İnkişaf edən əlaqələrin nəticəsi olaraq, muxtar respublikanın sahibkarlıq subyektləri Acarıstan Muxtar Respublikasının iqtisadiyyatına birbaşa investisiya qoyuluşunda iştirak edirlər”.

Ali Məclisin Sədri demişdir: “Elm və təhsil müəssisələrimiz arasındakı əlaqələr də böyük potensiala malikdir. Batumi Dövlət Universiteti ilə Naxçıvan Dövlət Universiteti arasında imzalanmış memoranduma əsasən, qarşılıqlı tələbə və elmi informasiya mübadiləsi həyata keçirilir. Bizim əlaqələrimiz qardaşlıq əlaqəsidir. Bizim əlaqələrimiz hər iki tərəfin insanlarını daha da yaxınlaşdırmaq və onlara xidmət əlaqəsidir”.

Ali Məclisin Sədri əlaqələrin daha da inkişaf etdirilməsində göstərdiyi səylərə və dəvətə görə Acarıstan Hökumətinin sədrinə təşəkkür etmiş, bundan sonra da Naxçıvan Muxtar Respublikası tərəfindən Azərbaycan-Gürcüstan əlaqələrinin tərkib hissəsi kimi qardaşlıq və qarşılıqlı tərəfdaşlıq əlaqələrinin davam və inkişaf etdirilməsində səylərin artırılacağını bildirmişdir.



Görüşdə mədəniyyət, turizm, idman və təhsil sahəsində əlaqələrin bundan sonra da inkişaf etdirilməsinin əhəmiyyəti vurğulanmış, əlaqələrin inkişafı barədə fikir mübadiləsi aparılmış, qarşılıqlı faydalı əməkdaşlığın perspektivi nəzərdən keçirilmişdir.

Azərbaycanın Batumidəki Baş konsulu Hüseyn Nəcəfov, Acarıstan Muxtar Respublikasının iqtisadiyyat və maliyyə naziri Davit Baladze, təhsil, mədəniyyət və idman naziri George Tavamaişvili, kənd təsərrüfatı naziri Zaur Phutkaradze, səhiyyə, əmək və sosial müdafiə naziri Nugzar Surmanidze görüşdə iştirak etmişlər.

Görüş başa çatdıqdan sonra qarşılıqlı hədiyyələr təqdim olunmuş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Acarıstan Muxtar Respublikası Hökumətinin Sədri Arçil Xabadze jurnalistlərə müsahibə vermişlər.

* * *

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Batumi şəhərinin dənizkənarı parkında olmuş, şəhərin mövcud infrastrukturu ilə maraqlanmışdır.

Günün sonunda Ali Məclis Sədrinin şərəfinə rəsmi ziyafət verilmişdir.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Acarıstan Muxtar Respublikası Ali Sovetində olmuşdur





İyulun 29-da – səfərin ikinci günü Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Acarıstan Ali Sovetinin Sədri Avtandil Beridze ilə görüşmüşdür.

Avtandil Beridze nümayəndə heyətini səmimiyyətlə salamlamış, ötən il Üçüncü Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində muxtar respublikaya səfərini və Ali Məclisin Sədri ilə keçirilən görüşü xatırlamış, qədim tarixə malik olan Naxçıvanın onda xoş təəssürat yaratdığını bildirmişdir. Ali Sovetin Sədri ikitərəfli əlaqələrin inkişafının hər iki tərəfin səyləri ilə uğurla davam etdirildiyini bildirmiş, dostluq və qarşılıqlı əməkdaşlıq səviyyəsində inkişaf edən münasibətlərin bundan sonra daha da genişlənəcəyinə əminliyini ifadə etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Gürcüstanın Acarıstan Muxtar Respublikası arasında əlaqələrin dinamik inkişafa malik olduğunu, əməkdaşlığın hazırkı səviyyəyə çatmasında parlamentlərarası münasibətlərin də mühüm rol oynadığını bildirmişdir. Qeyd olunmuşdur ki, 2012-ci il yanvarın 27-29-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin rəhbərliyi ilə nümayəndə heyəti Acarıstan Muxtar Respublikasında səfərdə olmuş, Acarıstan Parlamentində görüşlər keçirilmişdir. Bu görüşlər əməkdaşlığın daha da genişlənməsi üçün mühüm əhəmiyyət daşımışdır.

Ardı 2-ci səhifədə

Ali Məclisin Sədri xarici iqtisadi əlaqələrdə qardaş Gürcüstanın Acarıstan Muxtar Respublikası ilə qarşılıqlı faydalı əməkdaşlığın bundan sonra davam etdiriləcəyini bildirmiş, hər iki tərəfdən qardaşlıq münasibətlərinin dərinləşməsində əməyi olanlara təşəkkür etmişdir.

Görüşdən sonra Ali Məclisin Sədri Acarıstan Parlamentinin iclas zalı ilə tanış olmuş, xatirə şəkli çəkdirilmiş, yerli televiziya əməkdaşlarına müsahibə verilmişdir.

* * *

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Acarıstan Muxtar Respublikasının görməli yerlərindən olan Botanika bağında olmuş, burada mühafizə olunan bitki növləri ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, Botanika bağı Batumi şəhərinin 9 kilometr şimalında, Qara dənizin sahilində yerləşir. 111 hektar ərazisi olan Botanika bağı 1880-ci ildə qurulmağa başlanmış və 1912-ci ildə başa çatdırılmışdır. Burada Qafqaz regionuna xas olan bitki növləri ilə yanaşı, Şərqi Asiya, Yeni Zelandiya, Cənubi Amerika, Meksika, Avstraliya və Himalaydan gətirilmiş 2000-dən artıq bitki növü də mühafizə olunur. Dünyanın müxtəlif ölkələrindən gələn qonaqlar tərəfindən maraqla qarşılanan Botanika bağı alim və tədqiqatçılar üçün də əlverişli məkandır.

## Təhsil sahəsindəki əlaqələr uğurla inkişaf edir

*Batumi Dövlət Universitetində görüş*





İyulun 29-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şota Rustaveli adına Batumi Dövlət Universitetinin professor-müəllim heyəti və tələbələri ilə görüşmüşdür.

Mərasimi Batumi Dövlət Universitetinin prorektoru İrakli Baramidze açmış, universitetin fəxri doktoru – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ilə keçirilən görüşdən məmnunluğunu ifadə etmişdir. İrakli Baramidze Batumi Dövlət Universiteti ilə Naxçıvan Dövlət Universiteti arasında qurulan səmərəli elmi əməkdaşlığın, aparılan qarşılıqlı tələbə və elmi informasiya mübadiləsinin əhəmiyyətini vurğulamış, ali təhsil ocaqları arasındakı əlaqələrin bundan sonra da davam etdirilməsinin vacibliyini bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Batumi Dövlət Universitetinin professor-müəllim və tələbə kollektivini salamlayaraq demişdir: "Azərbaycan və Gürcüstan sıx əməkdaşlığa malikdir. Bu əməkdaşlığın ruhuna uyğun olaraq, hər iki ölkənin muxtar qurumları arasında, Acarıstan Muxtar Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında da qardaşlıq və əməkdaşlıq əlaqələri genişlənməkdədir. Biz əlaqələrimizin genişlənməsində ziyalıların, elm və təhsil işçilərinin əməkdaşlığına mühüm əhəmiyyət veririk".

Qeyd olunmuşdur ki, Batumi Dövlət Universiteti ilə Naxçıvan Dövlət Universiteti arasında bağlanmış müqaviləyə uyğun olaraq, hər iki ali təhsil müəssisəsi 2012-ci ildən sıx əməkdaşlıq edirlər. Universitetlərarası tələbə və müəllim mübadiləsi həyata keçirilir. Hər iki tərəfin elm və təhsil müəssisələrində keçirilən beynəlxalq elmi konfranslarda gürcü və azərbaycanlı alimlərin iştirak və çıxış etmələri humanitar sahədə əlaqələri daha da genişləndirmişdir. Batumi Dövlət Universitetində yaradılmış "Acarıstan-Naxçıvan Muxtar Respublikası" dostluq auditoriyası dərinləşən dostluğumuzun və təhsil əlaqələrimizin gözəl nümunəsidir.

Ali Məclisin Sədri Şota Rustaveli adına Batumi Dövlət Universitetinin fəxri doktoru adını daşımağın onun üçün fəxr olduğunu bildirmiş, Azərbaycan-Gürcüstan təhsil və elmi əlaqələrinin inkişafına göstərdikləri səylərə görə universitetin professor-müəllim heyətinə təşəkkür etmişdir.

Naxçıvan Dövlət Universitetinin rektoru, professor Saleh Məhərrəmov, Azərbaycanın Acarıstan Muxtar Respublikasındakı Baş konsulu Hüseyn Nəcəfov və Acarıstan Muxtar Respublikası Parlamentinin Sədri Avtandil Beridze çıxış edərək universitetlər arasındakı əlaqələrin hazırkı səviyyəsi və gələcək perspektivlərindən bəhs etmişlər.

Batumi Dövlət Universitetinin müəllimləri və bu universitetin mübadilə əsasında Naxçıvan Dövlət Universitetində təhsil alan tələbələri ali təhsil ocaqları arasında əməkdaşlığın qurulmasına və inkişafına göstərdiyi diqqət və qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişlər.

Sonra Ali Məclisin Sədri Batumi Dövlət Universitetinin müəllim və tələbələrinə kompüter dəstləri hədiyyə etmiş, onlarla xatirə şəkli çəkdirmişdir.

Görüşdən sonra yerli kütləvi informasiya vasitələrinə müsahibə verən Ali Məclisin Sədri Naxçıvan və Acarıstan muxtar respublikaları arasındakı münasibətlərin, xüsusilə təhsil sahəsindəki əlaqələrin məmnunluq doğurduğunu bildirmiş, bu əməkdaşlığın gələcək perspektivləri barədə verilən sualları cavablandırmışdır.

* * *

İyulun 29-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun Acarıstan Muxtar Respublikasına səfəri başa çatmışdır.

Ali Məclisin Sədrini Batumi Beynəlxalq Hava Limanında Acarıstan Muxtar Respublikası Hökumətinin Sədri Arçil Xabadze, Acarıstan Ali Sovetinin Sədri Avtandil Beridze, Azərbaycanın Batumidəki Baş konsulu Hüseyn Nəcəfov və digər rəsmi şəxslər yola salmışlar.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanda "Muzey günləri" keçirilir

***Muxtar respublikada mərkəzi icra hakimiyyəti orqanları üçün tərtib edilmiş "Muzey günləri"ndə mərkəzi icra hakimiyyəti orqanlarının əməkdaşları Naxçıvan şəhərindəki muzeyləri ziyarət edir, görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətini, tariximizi, mədəniyyətimizi, milli dəyərlərimizi özündə əks etdirən eksponatlarla tanış olurlar.***

İyulun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının kollektivi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin əməkdaşları Naxçıvan Dövlət Tarix Muzeyini ziyarət etmişlər.

Məlumat verilmişdir ki, qədim Naxçıvan diyarında muzey işinin başlanğıc tarixi XIX əsrin sonlarına təsadüf etsə də, ilk muzeyin yaradılması ötən əsrin 20-ci illərində mümkün olmuşdur. 1924-cü ilin fevral ayında Naxçıvan Muxtar Respublikası təşkil olunduqdan sonra Naxçıvan MSSR Xalq Komissarları Sovetinin 30 oktyabr 1924-cü il tarixli qərarı ilə Naxçıvan Tarix-Etnoqrafiya Muzeyi (indiki Naxçıvan Dövlət Tarix Muzeyi) yaradılmışdır. Naxçıvan Tarix-Etnoqrafiya Muzeyinin yaradılması barədə Naxçıvanın yerli hökuməti tərəfindən müvafiq qərar qəbul olunmasına və Maarif Komissarlığına müvafiq tapşırıqlar verilməsinə baxmayaraq, 1924-cü ilin oktyabrından 1925-ci ilin sonunadək muzey üçün yer ayrılmamışdır. Naxçıvan MSSR Xalq Komissarları Sovetinin 6 yanvar 1926-cı il tarixli iclasında "Naxçıvan Tarix-Etnoqrafiya Muzeyini zənginləşdirmək haqqında" məsələyə baxılmış və muzeyi zənginləşdirmək məqsədilə Naxçıvan şəhər sakini Balabəy Əlibəyovun şəxsi kolleksiyasının dövlət mülkiyyətinə götürülməsi və həmin əşyaların muzeyə təhvil verilməsi üçün komissiya yaradılmışdır. Beləliklə, muzeyin əməli surətdə təşkili müəyyən mənada həll edilmiş, B.Əlibəyovun özü isə həmin vaxtdan muzeyə direktor təyin edilmişdir.

Bildirilmişdir ki, yeni-yeni muzeylər yaratmaq, mövcud muzeylərin maddi-texniki bazasının möhkəmləndirilməsinə qayğı göstərmək sahəsində əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan ənənələr müstəqillik illərində də davam etdirilmişdir. Son 19 ildə Naxçıvan Dövlət Tarix Muzeyi böyük dövlət qayğısı ilə əhatə olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə 2000 və 2007-ci illərdə muzeyin binasında əsaslı təmir-tikinti işləri aparılmışdır.

Son illər muzeyin ekspozisiyası tamamilə yenidən qurulmuş, eksponatların həm fiziki, həm də bioloji cəhətdən etibarlı mühafizəsi üçün ekspozisiya yeni vitrinlər və saxlanc qurğuları ilə təchiz edilmişdir.

Yaradıldığı ilk vaxtlarda cəmi bir neçə yüz eksponatla fəaliyyətə başlayan muzeyin fond və ekspozisiyasında indi 49 mindən çox eksponat mühafizə edilməklə həm də geniş şəkildə təbliğ olunur. Muzeydə eksponatların sayı 1991-ci ildə 35 min 382 ədəd olmuşdusa, 2000-ci ildə artaraq 38 min 631 ədəd olmuşdur. Son 15 ildə muzeyin fonduna 11 min 775 ədəd yeni eksponat daxil edilmişdir.

Naxçıvan muxtariyyətinin yetirməsi və yaşıdı olan Naxçıvan Dövlət Tarix Muzeyi Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi ilə əlaqədar elan olunmuş "Muxtariyyət ili"nə öz töhfəsini verməyə çalışır. Bu münasibətlə muzeyin ekspozisiyasında bu ilin fevral ayında təşkil edilən "Naxçıvan Muxtar Respublikası – 90" adlı sərgidə muxtariyyət tariximizə dair məlumatlar, tarixi xəritələr, sənədlər, fotoşəkillər, kitablar, qəzet və jurnallar, həmçinin digər materiallar nümayiş olunmaqla yanaşı, bu gün Naxçıvanda istehsal olunan sənaye məhsullarının nümunələri də tamaşaçılara təqdim edilir.

**"Şərq qapısı"**

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin birgə razılaşdırılmış tədbirlər planına uyğun olaraq, muxtar respublikamızın 90 illiyi münasibətilə tədbirlər davam etdirilir. Yubiley münasibətilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi ilə Azərbaycan "İmplantoloq" İctimai Birliyinin birgə keçirdikləri beynəlxalq elmi-praktik konfrans "Stomatologiyada innovasiyalar" mövzusuna həsr olunmuşdu.***

## Beynəlxalq konfransda dental implant cərrahiyyəsi internet üzərindən canlı izlənilmişdir

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Tibbi yardımın təşkili şöbəsinin müdiri Süleyman Cəfərov son illər stomatologiya sahəsində həyata keçirilən tikinti-quruculuq, maddi-texniki bazanın möhkəmləndirilməsi, müasir infrastrukturun yaradılması, yüksəkixtisaslı kadrların yetişdirilməsi istiqamətində görülən işlərdən danışıb, beynəlxalq elmi-praktik konfransların yerli həkimlərin peşə və bacarıqlarının artırılmasında mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Türkiyə Respublikası Hacəttəpə Universitetinin professoru Bahadır Girayın "Dental implant cərrahiyyəsində 11 kritik nöqtə", Azərbaycan "İmplantoloq" İctimai Birliyinin sədri, tibb üzrə fəlsəfə doktoru Cabbar Həsənovun "Diş implantasiyasında istifadə olunan müasir avadanlıqlar və onların tətbiqi" mövzularındakı məruzələrində stomatologiyanın son yeniliklərindən, dünya praktikasında istifadə olunan üsullardan bəhs olunub, mövzularla bağlı slaydlar göstərilib.

Naxçıvan Muxtar Respublikası Stomatoloji Mərkəzin baş həkimi Səkinə Məmmədova "Stomatoloji Mərkəzin 2012-2014-cü illərdə keçdiyi yol" mövzusundakı məruzəsində son illər tibbin bütün sahələrində özünü göstərən yeniliklərin stomatologiya sahəsində də müşahidə olunduğundan bəhs edib. Muxtar respublikanın həkim-stomatoloqlarının, diş texnikləri və tələbələrin iştirakı ilə keçirilən konfransda fikir mübadiləsi aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Sonra Stomatoloji Mərkəzdə Hacəttəpə Universitetinin professoru Bahadır Girayın və yerli stomatoloqların iştirakı ilə dental implantasiya əməliyyatı aparılıb. Bu əməliyyat Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində keçirilən konfransda internet üzərindən canlı izlənilib. Qeyd edilməlidir ki, son iki gündə artıq 4 dental implant əməliyyat aparılıb. Konfransda ilk dəfə olaraq baş tutan canlı bağlantı isə elektron xidmətləri genişləndirmək məqsədilə Səhiyyə Nazirliyinin müəssisələrində son illər həyata keçirilən tədbirlərin məntiqi nəticəsidir. Artıq bir neçə ildir ki, nazirlikdə tibbi informasiya sistemi proqramı yaradılıb. Bir sıra statistik hesabat formaları (Forma 12, Forma 17, Forma 30), imtahan-test sualları, obliqat qruplarının müayinəsi, uşaq sağlamlıq kartları, Diaqnostika-Müalicə Mərkəzində maqnit rezonans, tomoqrafiya müayinələri muxtar respublikada yaradılmış lokal səhiyyə şəbəkəsinə ötürülür. Hazırda səhiyyə müəssisələrində yaradılmış şərait isə hər hansı cərrahi əməliyyatın dünyanın istənilən ölkəsində izlənilməsinə imkan verir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***




# Turizm







*Turizm müasir dünyada inkişaf etdirilməsinə daha çox diqqət yetirilən sahələrdən biridir. Çünki bu sahənin inkişafı istənilən ölkənin büdcəsinə gəlir gətirməklə bərabər, həm də həmin ölkənin tarixinin, mədəniyyətinin, təbii gözəlliklərinin təbliğində mühüm rol oynayır. Hər bir ölkənin özünəməxsus təbii gözəllikləri, tarixi, mədəni abidələri ola bilər. Ancaq turizm o zaman inkişaf edir ki, bu gözəlliklər, sadə dillə desək, pula çevrilsin və bu gözəlliklərdən istifadə davamlı şəkil alsın. Məhz bu gün dünyada bunu bacaran xeyli sayda qabaqcıl təcrübəyə malik ölkələr var. Hansı ki, bu ölkələr turizmin inkişafında təbliğat vasitələrindən düzgün yararlanırlar. Bunun da nəticəsində ölkəyə xeyli turist cəlb edə bilirlər. Yəni demək istədiyimiz odur ki, turizmin inkişafında müvafiq infrastruktur bazanın yaradılması ilə yanaşı, bu bazanın düzgün təbliği də əsas şərtlərdəndir. Elə bu yazıda da muxtar respublikamızın turizm imkanlarından və bu imkanların təbliği yollarından bəhs edəcəyik.*

## Turizmin inkişafı düzgün təbliğatdan asılıdır

Qeyd etmək lazımdır ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası istər tarixi, istər mədəni abidələri, istərsə də təbii gözəllikləri ilə turizm üçün geniş imkanlar açır. Naxçıvan Muxtar Respublikasının ötən əsrin sonlarından start götürmüş davamlı inkişafı regionda çox mühüm dəyişikliklərə səbəb olmuş, bütün sahələrdə müsbət nəticələrin əldə edilməsinə şərait yaratmışdır. Kompleks şəkildə aparılan quruculuq işləri – tikilən binalar, abadlaşdırılan yollar, salınan park və xiyabanlar, təmir və bərpa olunan tarixi abidələr, yaşıllaşdırılan ərazilər bu diyarı əsl turizm diyarına çevirir. Xüsusilə son 19 ildə müxtəlif məzmunlu dövlət proqramlarının vaxtında və uğurlu icrası çox mühüm keyfiyyət dəyişikliklərinə səbəb olmuş, muxtar respublika öz inkişafına görə Azərbaycanın lider regionuna çevrilmişdir. Belə ki, bəhs edilən dövr ərzində muxtar respublikada 400-dən çox müxtəlif profilli təhsil və səhiyyə müəssisəsi, 300-dən artıq mədəniyyət və turizm obyekti inşa olunaraq və ya əsaslı təmir edilərək istifadəyə verilmişdir. 2006-2012-ci illərdə muxtar respublikada aparılan araşdırmalar zamanı 1200-dən artıq abidə qeydə alınaraq pasportlaşdırılmışdır. 530-a yaxın mədəniyyət, incəsənət və turizm müəssisəsinin fəaliyyət göstərdiyi regionda dünya mədəniyyət inciləri sırasında yer tutan Möminə xatın və Qarabağlar türbələri, yaşı tarixin qədim dövrlərinə gedib çıxan Gəmiqaya abidələri, bəşəriyyətin yaradılış tarixinin bu torpaqda yazıldığını əks etdirən Nuh Peyğəmbərin məzarüstü türbəsi, əsrarəngiz Duzdağ mağaraları, adı "Qurani-Kərim"də çəkilən Əshabi-Kəhf mağarası və adını sadalamadığımız xeyli sayda tarixi, dini, mədəni və təbiət abidələri Naxçıvanın qoynunda nəfəs alır. Bütün bunları düşünərkən qədim diyarın yüksək turizm potensialı bir daha gözlərimiz önündə canlanır. Doğrudur, son illərdə dövlətimiz tərəfindən turizm sektorunun inkişafı istiqamətində atılan addımlar ildən-ilə xarici turistlərin bura axınını sürətləndirsə də, muxtar respublikanın turizm məkanı kimi tanıdılmasında təbliğat vasitələrindən yetərincə istifadə olunmaması da qarşımızdakı əsas hədəflərdən biridir. Bu təbliğatın aparılması isə təkcə dövlətin yox, həm də vətəndaşların vəzifəsidir. Bəs inkişaf etmiş ölkələrdə bu vasitələrdən necə istifadə olunur?

### *Rasionallıqdan emosionallığa doğru və ya Baden-Baden gecələri niyə mavidir?*

Əvvəlcə söhbəti oradan başlayaq ki, dünyanın istənilən ölkəsində yaşının az və ya çox olmasından asılı olmayaraq, tarixi və mədəniyyət abidələri var. Bu abidələr həmin ölkənin rasional dəyərləridir. Turistlər bu abidələri ziyarət etsələr də, praktik baxımdan bunu bir dəfə edirlər. Bilirsiniz niyə? Çünki bu abidələr emosiya daşıyıcısı deyil. Fikrimizi belə aydınlaşdıraq. Fransanın paytaxtı Parisi ziyarət edən turistlərin böyük əksəriyyəti tarixi tikililərdən fərqli olaraq, Eyfel qülləsini daha çox görməyə can atırlar. Yəni bu qüllə tarixi və mədəni abidələri ziyarət baxımından xeyli geridə qoyaraq şəhər üçün bir dəyərə çevrilmişdir. Bu dəyər isə özlüyündə bir emosiyadır. Və yaxud götürək Nyu-York şəhərini. Bu yeni şəhər daha çox hündür və gözəl göydələn binaları ilə məşhurdur. Nyu-Yorka yolu düşən insanların əksəriyyəti bu hündür binaların fonunda fotoşəkil çəkdirməyi çox sevir. İndi isə başqa bir misal. Son dövrlərdə Yaxın Şərqin ən gözəl şəhərlərindən birinə çevrilmiş Birləşmiş Ərəb Əmirliklərinin



paytaxtı Dubay şəhərində dənizdə salınmış "Palma ağacı" layihəsi və yelkənli gəmini xatırladan "Burc Xəlifə" oteli şəhərə gələn turistlərin sayını 20 dəfədən çox artırmışdır. Qeyd etdiyimiz tikililərin hamısı özlüyündə emosiya daşıyır. Elə rasional dəyərlər də var ki, bu dəyərlər həm də bir emosiya, hiss, həyəcan daşıyıcısıdır. Məsələn, Misir piramidaları qədim tarixi abidələr sayılsa da, onu ziyarət edən turistləri bu daş tikililərin tarixindən çox onun necə tikilməsi maraqlandırır. Məhz bu amil onları maraq və həyəcanla seyr etdirməyə məcbur edən emosional dəyərə çevirir. İndi isə qeyd etdiklərimizi muxtar respublikamızın misalında təsəvvür edək. Əshabi-Kəhf mağarasının təbliğat baxımından əsas özəlliyi onun adının məhz müqəddəs kitabda qeyd olunmasıdır. Duzdağ mağaralarına emosional dəyər verən, sadəcə, dağın duz yataqlarından ibarət olması deyil, həm də buranın şəfa ocağı olmasıdır. Və ya Naxçıvan şəhərinin embleminə çevrilmiş Möminə xatın türbəsinin dəyəri təkcə onun yüksək memarlıq incilərini özündə əks etdirməsi deyil, eyni zamanda bu abidənin Qərb dünyasında cəhalətin hökm sürdüyü dövrdə Şərqdə qadının şərəfinə tikilən mükəmməl abidə olmasıdır. Və yaxud Əlincə qalasının dəyərini artıran onun dünyanı lərzəyə salan bir hökmdara qarşı mübarizlik göstərməsidir. Əks təqdirdə, bu qala, sadəcə, tarixi tikili kimi tarixin yaddaşında qalacaqdı. Belə misalların sayını çoxaltmaq olar. Demək istədiyimiz odur ki, adıçəkilən məkanların təbliğində onlara dəyər qatan bu amillərin böyük rolu vardır.

Vurğulamaq lazımdır ki, emosional dəyərlər, sadəcə, tarixi abidələr və tikililərlə məhdudlaşmır. Yenə dünya təcrübəsinə müraciət edək. Qardaş Türkiyə Respublikası tarixi, mədəni və təbii gözəllikləri ilə Avropanın ən inkişaf etmiş ölkəsi olan Almaniyanı nə qədər qabaqlasa da, alman turizm təbliğatının mükəmməlliyi yenə də öz sözünü deməkdədir. Almaniyanın çox qədim bir kurort şəhəri var. Baden-Baden adlı bu şəhər həm qədim tarixinə, həm də tarixi tikililərinə görə digərlərindən fərqlənir. Yeri düşmüşkən qeyd edək, bu şəhər Almaniyanın İkinci Dünya müharibəsindən salamat çıxmış şəhərlərindən biridir. Almanlar bu şəhərdə milliliyi daim təbliğ etməklə hələ sovet dövründən zəngin rusları bu şəhərə çəkməyi bacarıblar. Yaxın bir dostumun iki ay bundan əvvəl bu şəhər haqqında dedikləri hələ də yadımdadır: "Şəhər restoranlarından birində milli geyimli xidmətçi məşhur rus yazıçısı Dostoyevskinin burada yemək yeməsini elə emosional şəkildə izah edirdi ki, mən də məcbur qalıb naharı orada etdim". Dostumun dediklərinə görə, almanlar bu şəhəri elə reklam edirlər ki, bütün avropalılar burada pul xərcləməyi, sadəcə, çox sevirlər. Turistlər üçün yaradılmış hərtərəfli şərait – səliqə-sahman, yüksək xidmət, nəzakətli davranış, rahat hərəkət gündüzlər olduğu kimi, şəhərin gecə həyatına da eyni təsiri göstərir. Şəhərdəki canlılıq gecələri də gündüz kimi aydın təqdim edir. Bəlkə də, buna görədir ki, Baden-Badenin gecələri elə gündüz olduğu kimi aydın və işıqlı, yəni mavi görünür. Yəni təbiət bura qeyri-adi bir sərvət bəxş etməyib, sadəcə, "Baden-Badenin mavi gecələri" almanların bu şəhər üçün yaratdığı bir emosiyadır.

### *Naxçıvanın heç yerdə rast gəlinməyən özünəməxsus keyfiyyətləri*

Muxtar respublikamızın tanıdılması və təbliğində özünəməxsus keyfiyyətlər çoxdur. Məsələn, indi paytaxt Naxçıvan şəhəri təmizliyi ilə Avropanın istənilən təmiz şəhəri ilə müqayisə olunacaq bir şəhərdir. Təmizliyi ilə yanaşı, Naxçıvan şəhəri, eləcə də bütünlükdə muxtar respublikamız sakit bir diyardır. Naxçıvan dünyanın ən təhlükəsiz regionlarından biridir. 400 mindən çox sakini olan muxtar respublikada paytaxt Naxçıvan şəhəri də daxil olmaqla, küçələrdə 1 nəfər belə, dilənən insana rast gəlmək mümkün deyil! Və yaxud başqa bir misal: struktur baxımdan muxtar respublikada körpələr evi fəaliyyət göstərsə də, burada bir nəfər də olsun atılmış uşağa rast gəlməzsən!

### *Son söz*

Yuxarıda qeyd etdiklərimiz bu gün muxtar diyarımızın təbliğində mühüm rol oynayar. Yetər ki, bu keyfiyyətləri əcnəbilərə düzgün təbliğ etməyi bacaraq. Turistlər üçün maraqlı olan getdikləri ölkənin dəyərləridir. Çünki bu dəyərlər həm də özlüyündə emosiya daşıyıcısıdır. Emosiyanın isə maraqlar üzərində qurulduğunu hamımız bilirik.

**✍ Səbuhi HƏSƏNOV**

---

*Yurdumuzu tanıyaq və tanıdaq*

## Naxçıvan-Ərəfsə-Ləkətağ turizm marşrutu

***Yay fəslinin özünəməxsus qayğılarından biri də, şübhəsiz, məzuniyyət dövrünü mənalı keçirmək istəyənlərin öz tələbatlarına uyğun istirahət növü, yəni müvafiq bir turizm marşrutu seçməkdir. Bu, bəzən ilk baxışda sadə görünsə də, vaxtın azlığı, ölkədaxili və xarici turizm bazarlarındakı təkliflərin çoxluğu və istirahətə gətmək istəyənin məlumatsızlığı səfər ərəfəsində bir çox çətinliklər yaradа bilər. İstirahətini muxtar respublikamızdan kənarda deyil, onun dilbər guşələrindən birində ailəliklə keçirmək istəyənlər varsa, Naxçıvan-Ərəfsə-Ləkətağ marşrutu onlara maraqlı və yaddaqalan təəssürat vəd edir.***

Yay vaxtında səyahətə çıxmaq istəyənlərin seçimləri arasında kənd turizminin öz xüsusi yeri vardır. Məhz ilin isti yay günlərində ailəliklə kənddə düşərgə salıb, yaxud geniş bir kənd evinin bir hissəsini kirayə tutub, nə az, nə çox, üç-dörd həftə yaxşıca istirahət edib, əvəzində də beşgünlük xarici ölkə turunun qiyməti qədər haqq ödəməyi kim bəyənməz ki? Yetər ki, səyahətə yollanmağa həvəs, bir də turizm bazarından baş çıxaran bir dostunuz, yoldaşınız olsun. Amma söz yox ki, hamının turist səfərinə gedə bilməsi üçün heç də bir bələdçi dostunun olması şərt deyil. Yaşadığınız şəhərdə, regionun bir rayonunda fəaliyyət göstərən turoperator və ya turizm informasiya mərkəzi varsa, onlar sizə dostunuzdan da yaxşı və sərfəli turlar məsləhət edə bilərlər.



Çünki bu, onların işi, bilavasitə vəzifə borcudur.

Naxçıvan Muxtar Respublikasının mümkün turizm marşrutları haqqında fikirlərimizi daha da genişləndirmək, bölgənin turizm potensialını praktik olaraq öyrənmək üçün bu dəfə yeni bir istiqamətə – Ərəfsə-Ləkətağ səmtinə üz tutduq.

Naxçıvanın turizm imkanlarından danışırıqsa, artıq, demək olar ki, hamının yaxşı tanıdığı müqəddəs Əshabi-Kəhf ziyarətgahı, Ordubad, Gəmiqaya, Batabat, Ağbulaq, Duzdağ, Darıdağ, Haçadağ, Əlincə kimi məşhur destinasiyalarla yanaşı, nəyə görə Naxçıvan-Ərəfsə-Ləkətağ, Naxçıvan-Qarabağlar, Naxçıvan-Nehrəm, Naxçıvan-Şahbuz-Qanlıgöl, Naxçıvan-Oğlanqala, Naxçıvan-Ordubad-Göygöl və sair kimi onlarla istiqamətdə turlar təşkil edə bilməyək? Axı bu istiqamətlərdə ilin müəyyən dövrlərində, aylarında, fəsillərində turistlərə təqdim olunası minlərlə tarixi yer və tarixi abidələr, təbii ehtiyat, mineral su mənbələri, unikal bitki nümunələri, qeyri-adi relyef mənzərələri, yaşıllıq və çəmənliklər, bulaq və şəlalələr, yalçın qayalar, daha nələr-nələr vardır. Üstəgəl, hər birinin də öz gözəlliyi və xalq arasında bu günə qədər yaşayıb gələn özünəməxsus tarixi hekayəsi. Bütün bunları bir qonaq gözü ilə bir arada görə bilən, regionumuzun büsbütün müasir yol, nəqliyyat və digər sosial infrastruktur şəraitindən də istifadə etməyi bacaran hər bir kəs göstərilən marşrutların mümkünlüyünə əmin ola bilər.

Turizm fəaliyyətində qonaqpərvərlik çox mühüm anlayışdır və onun gücündən həmişə istifadə edilməyə çalışılır. Bütün dünyada, demək olar ki, standart qəbul edilmiş peşəkar qonaqpərvərlikdən başqa, milli qonaqpərvərliyin elə elementləri vardır ki, onları görmək, görüb sevmək üçün dağ-daş, dərə-təpə deмədən hər yerə üz tutmağa dəyər. Qoy üzüyuxarı yamaca sərilmiş gəvən tikanları ayağını incitsin, amma günün sonunda düşərgəyə qayıdanda onu biləcəksən ki, o qalxdığın zirvə də artıq sənindir. Şəhərin komfortuna öyrənmiş ayaqlarımız bir az yorulub sızıldasa da, yolda tanış olduğumuz şair qəlbli cavanın incə ruhunun mayasının Ləkətağın möhtəşəm Naxçıvan panoramalı Dəmirli zirvəsindən, Əlincəçayın yayın ortasında da çoşqun sularından gəldiyini kəşf etmək qədər tapıntı varmı? Amma hələ gəlin tələsməyək. Naxçıvandan Ləkətağa qədər yolüstü çox qeyri-adi mənzərə bizi gözləyir. Çeşməbasar yolundan başlayaraq Naxçıvanın tarix yaşıdı Əlincə qalasının, bir sərkərdə kimi məğrur Haçadağın ecazkar görüntüləri dəqiqələrcə adamı yerində dondura bilər. Qədim yurd yerlərindən xəbər verən Qazançı körpüsü yaxınlığında dayanıb bu yerlərin tarixi haqqında da qonaqlara danışmaq yerinə düşər. Ərəfsənin Ərəcisindən Ləkətağın Qızılqayasınadək gəzib dolaşan səyahət həvəskarları üçün isə burada kəşf olunacaq daha nələr yoxdur ki?! Kəndin sizi gülərüzlə qarşılayan istənilən cavanından xahiş etsəniz, o, sizə həvəslə Qoşaçeşmə bulağınadək bələdçilik edib, Ağsu bulağının dumduru suyunun sirlərindən danışa bilər. Burada hamı öz iş-gücündə, təsərrüfatında, qurucluğundadır. Amma onların kəndə kənd turizmi üçün gələcək çoxlu sayda turistlərə də ayırmağa vaxtı var. Yerli camaat üçün yaradılmış müasir xidmətlərdən istifadə edə bilən şəhərli qonaqların əl dəyməmiş təbiət qoynunda keçirəcəyi hər mənalı gün isə onların yaddaşında uzun müddət qalacaqdır. İstərsən piyada cığırları ilə, istərsən CİP model maşınlarla o zirvəsi çənli dağlara qədər yollar açıqdır. Gəzib baxmağa isə dəyər. Niyə olmasın? İndi adamlardan bir çoxu artıq çəkidən əziyyət çəkdiyi üçün axşamları şəhərin səkilərində gəzişməklə kifayətləndiyi halda, səhərləri sübh erkəndən səhər idmanına çıxanları çox az görürük. Amma burada, qonaq qaldığınız kənddə səhər saat 6-da yuxudan qalxıb, bal-qaymaqlı səhər yeməyinizdən dərhal sonra turist çantası ilə yürüşə çıxmaq ən yaxşı təbii müalicədir. Şəhərdə gecə saat 1-də yatağa girib, səhər saat 11-dək "yuxu bişirənlərin" əksinə olaraq, Ləkətağ kimi kəndlərimizdə canlı həyatın ritmi sanki Günəşlə bərabər tənzimlənir. Həkimlərimiz də tez-tez bunu məsləhət edirlər: təbiətlə ahəngdar yaşayın! Bax budur uzunömürlüyün sirri. Odur ki, bu yay Naxçıvanın quru, təmiz havasından uzaqlaşmadan, abad, ancaq sakit və xudmani bir kənddə dincəlməyi düşünsəniz, biz sizi Ləkətağa dəvət edirik. İnsanın qanını coşduran Naxçıvan-Əlincə yolunun enişli, yoxuşlu ecazkarlığı qədər, əsabləri sükuta qərq edən Ləkətağın sərin-səfalı bağ-bağatında dincəlməyə dəyər.

**✍ Əli CABBAROV**

## Növbəti qəbul imtahanları keçirilib



İyulun 27-də Naxçıvan Dövlət Universitetində Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən 2014-2015-ci tədris ili üçün Azərbaycan Respublikasında baza ali tibb təhsili əsasında həkim mütəxəssislərin hazırlanması məqsədilə rezidentura səviyyəsinə qəbul imtahanının II mərhələsi keçirilib.

Naxçıvan şəhərində keçirilən imtahanda 26 namizəd iştirak edib. Saat $11^{00}$-də başlanan imtahanda namizədlərə 2 saat 30 dəqiqə vaxt verilib.

Qeyd edək ki, namizədlərə ixtisas fənləri üzrə hər bir test tapşırığının cavabı 1 balla qiymətləndirilən 100 test tapşırığı təqdim olunub; səhv cavablar namizədin imtahan nəticəsinə təsir göstərmir. Müsabiqə baza və ixtisas fənlərindən toplanılan balların cəminə əsasən aparılır. Müsabiqədə iştirak etmək üçün namizədin baza fənləri üzrə imtahanda topladığı bal 40-dan, ixtisas fənləri üzrə isə 50-dən az olmamalıdır.

Qeyd edək ki, rezidenturaya qəbul olunmaq üçün ixtisas seçimi iyulun 29-dan 31-dək aparılır. Namizədlər müəyyən olunmuş müddət ərzində internet üzərindən elektron ərizələrinə daxil olaraq ali tibb bazasına uyğun (bitirdiyi fakültəyə müvafiq olan) ixtisasları seçib təsdiq etməlidirlər.

Rezidentura səviyyəsinə qəbul imtahanının I mərhələsi 30 mart 2014-cü il tarixdə keçirilib və müsabiqə şərtini ödəyənlər (ən azı 40 bal toplayanlar) imtahanın II mərhələsinə buraxılıblar.

Məlumat üçün bildirək ki, həmin gün Heydər Əliyev adına Hərbi Liseyə də qəbul imtahanı keçirilib.

**Səbuhi HƏSƏNOV**

## Təbii sərvətimiz olan meşələri yanğından qoruyaq

*Gündən-günə gözəlləşən muxtar respublikamızda yeni salınmış meşə zolaqları qədim yurdumuzun təbii gözəlliyinə ayrı bir gözəllik bəxş edir. Məhz təbiətə xüsusi gözəllik bəxş edən bu meşələri hamılıqla qoruyub saxlamalı və hər bir əkilən ağaca qayğı göstərməliyik. İsti yay günlərində ehtimalı daha çox olan xoşagəlməz hadisələrdən biri də yanğınlardır. Belə hadisələrin qarşısının alınmasında aidiyyəti dövlət orqanları ilə yanaşı, vətəndaşların da üzərlərinə çox mühüm vəzifələr düşür. Qeyd edək ki, külli miqdarda ziyanla nəticələnən yanğın hadisələrinin baş verməməsi üçün yay mövsümündə qabaqlayıcı tədbirlərin görülməsinə daha çox diqqət yetirilməlidir. Təbiətə xüsusi gözəllik bəxş edən meşələrin yanğından qorunması isə ən qiymətli sərvətlərimizdən birinin qorunması deməkdir. Çünki insanların həyat fəaliyyətində, onların sağlamlığında mühüm rol oynayan meşələrin də daim qayğıya ehtiyacı vardır. Meşələrdən bəhrələnməklə, onun nemətlərindən istifadə etməklə yanaşı, təbiətin bu əvəzsiz nemətini qorumaq, onu gələcək nəsillərə ərməğan etmək hər bir vətəndaşın borcudur. Meşələrin məhv olmasının əsas səbəblərindən biri də yanğınlara məruz qalmasıdır. Məhz buna görə insanların həyat fəaliyyətində mühüm rol oynayan meşələri yanğından qorumaq üçün Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi isti yay günlərində vətəndaşlara yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət etmələrini tövsiyə edir.*

Meşələrdə yanğın təhlükəsizliyinə cavabdeh olan şəxslər, o cümlədən meşə-mühafizə mühəndisləri meşələrin yanğın təhlükəsizliyi qaydalarını bilməklə meşə sahələrində və zolaqlarında yanğına qarşı ciddi rejim təyin etməli və ona ciddi riayət olunmasını daim nəzarətdə saxlamalıdırlar. Meşə təsərrüfatının rəhbər işçiləri yanğınsöndürmə texnikalarını və vasitələrini, təbii və süni su mənbələrinin, keçidlərin, yolların vəziyyətini daim yoxlamalı, mütəmadi olaraq işçilərlə yanğınsöndürmə xidmətinin çağırılması, yanğınsöndürmə avadanlıqlarından düzgün istifadə edilməsi ilə əlaqədar məşqlər keçirməlidirlər. Meşə və meşə zolaqlarında yanğınların baş verməsinə səbəb ola bilən amillərin aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi, habelə yanğınsöndürmə vasitələrinə vaxtlı-vaxtında texniki xidmət göstərilməsi də zəruridir.

Meşə təsərrüfatında yanğın təhlükəsizliyinə məsul olan şəxslər yanğın təhlükəsizliyi qaydalarına riayət olunmasına nəzarət məqsədilə meşə sahələrinə və zolaqlarına vaxtaşırı baxış keçirməli, yanğın baş verən zaman yanğınsöndürmə xidmətinin hadisə yerinə çağırılması üçün tədbirlər görməli, yanğının söndürülməsi üçün mövcud vasitələri təşkil etməlidirlər.

Meşə sahələrində baş verən 10 yanğından 9-u odla ehtiyatsız davranmadan və ya meşədə iş və istirahət zamanı insanların yanğın təhlükəsizliyi qaydalarını pozmaları səbəbindən baş verir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, meşədə və ya meşəətrafı sahələrdə yandırılmış tonqallar və bu tonqalların tam söndürülmədən nəzarətsiz qoyulması kütləvi meşə yanğınlarına səbəb ola bilər. Söndürülməmiş kibritin, siqaret kötüyünün meşəyə atılması, maşınların mühərrikindən qopan qığılcımlar da yanğın törədir. Meşələrə sürtgü yağı, benzin, ağ neft, dizel yanacağı və sair yanar məyelərə bulaşmış materiallar atmaq olmaz. Meşədə torf və bitki köklərinin yandırılması yanğın təhlükəsizliyi cəhətdən yolverilməzdir. İstirahət edən zaman şüşə qabları, şüşə qırıntılarını meşəyə atmaq qadağandır. Əks halda, Günəş şüasından təsirlənən şüşə qablar və qırıntıları yanğın ocaqlarının yaranmasına səbəb ola bilər.

Müəyyən olunmamış yerlərdə avtomobil, traktor və digər daxiliyanma mühərrikli aqreqatların yanacaqla doldurulması, eləcə də onların yaxınlığında tonqal yandırılması yanğın təhlükəsi yaratdığından yolverilməzdir. Yanğın təhlükəsi olan meşə sahələri, meşə yolları və digər torpaqlarla həmsərhəd olan sahələr yanğın əleyhinə 2-3 metr enində şumlanmalı, meşənin quru ot və odun qalıqlarından təmizlənməsi təmin edilməli, meşə ərazisində yerləşdirilən hər hansı tikilinin ətrafı 15 metr radiusunda şumlanmalı və ya




yanğına qarşı minerallaşdırılmış zolaqlarla təmin edilməlidir. Meşədən və ya meşə zolağından keçən avtomobil və dəmir yollarının hər iki tərəfi 10 metr məsafədə yanar materiallardan təmizlənməli, meşələr yanğına qarşı minerallaşdırılmış zolaqlarla təmin edilməlidir.

Havaların isti keçməsi meşələrin yanğın təhlükəsini daha da artırır. Məhz buna görə cavabdeh şəxslər tərəfindən vaxtaşırı olaraq meşədaxili və ətraf sahələr yoxlanılmalıdır. Yanğın və alışma hadisəsi baş verən zaman mövcud əlattı odsöndürücü vasitələrdən istifadə edilməlidir. Yolda hərəkət edən nəqliyyat vasitələri istifadəçiləri və digər vətəndaşlar tərəfindən siqaret qalığının yanılı vəziyyətdə yerə atılması meşə yanğınlarının baş verməsinə səbəb ola bilər. Hər bir vətəndaş bilməlidir ki, meşələrdə yanğın təhlükəsizliyi qaydalarına riayət etməklə o, ölkəmizin iqtisadiyyatının inkişafına və vətəndaşlarımızın sağlamlığına xidmət etmiş olar.

Yuxarıda qeyd olunanlarla bağlı hər hansı bir yanğın hadisəsi baş verərsə, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin **"112"** qaynar telefon xəttinə və ya Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin şəhər-rayon Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin **"101"** nömrəli xidməti telefonlarına zəng etməyi unutmayın.

**Mirtaleh SEYİDOV**
***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin bölmə rəisi, daxili xidmət kapitanı***

*İstər olimpiya, istərsə də qeyri-olimpiya növü olmasından asılı olmayaraq, bütün idman növlərinin inkişafına Naxçıvan Muxtar Respublikasında böyük diqqət göstərilir. Uşaqların, yeniyetmə və gənclərin sağlam həyat tərzində yaşamaları, onların idmanla məşğul olmaları üçün muxtar respublikada hər cür şərait yaradılıb. Hazırda fəaliyyət göstərən idman federasiyaları gənclərin sağlam həyata inteqrasiyası üçün bir çox işlər görürlər. Bu federasiyalardan biri də Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasıdır. 2014-cü ilin ötən dövründə federasiyanın fəaliyyəti ilə yaxından tanış olmaq üçün qurumun sədr müavini Nəriman Quliyevlə söhbətləşdik.*

## İdmançıların qazandığı uğurlar onlara göstərilən diqqət və qayğının nəticəsidir

### *Beynəlxalq turnirlərdə qazanılan medallar*

Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının sədr müavini Nəriman Quliyev ilk olaraq muxtar respublikada bu idman növünə olan maraqdan danışdı: "Karate-do Federasiyası 2002-ci ildən fəaliyyət göstərir. Bu müddət ərzində idmançılarımız bir çox beynəlxalq turnirlərdə çıxış edib, mükafatlar qazanıblar. Hal-hazırda muxtar respublikada 500-dən çox uşaq, yeniyetmə və gənc karate ilə məşğul olur. Federasiyanın nəzdində iki klubumuz fəaliyyət göstərir. Bunlardan biri "İlğım" karate idman klubu, digəri isə "Budokan" karate idman klubudur. Bununla yanaşı, muxtar respublikanın bütün rayonlarında karate məktəbləri var və bu idman növünə olan maraq gündən-günə artmaqdadır".

N.Quliyev 2014-cü ilin ötən dövründə federasiyanın fəaliyyətindən danışdı. O bildirdi ki, bu dövrdə federasiya bir çox turnirlər təşkil edib, idmançılarımız beynəlxalq yarışlarda öz qüvvələrini sınayıblar. 16-17 fevral tarixlərində muxtar respublika idmançıları Milli Karate Federasiyasının təşkil etdiyi Azərbaycan çempionatında iştirak edib və müxtəlif yaş qruplarında 4 qızıl, 2 gümüş medal qazanıblar. Bundan əlavə, 7-8 may tarixlərində ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr edilmiş Karate-do üzrə Naxçıvan Muxtar Respublikası açıq birinciliyi keçirilib. Bu turnirdə muxtar respublikanın və Bakı şəhərinin 4 komandasının, ümumilikdə, 300-dən çox idmançısı qüvvəsini sınayıb. İdmançılarımız Gürcüstanın Poti şəhərində keçirilən 20-ci beynəlxalq turnirdə çıxış edib və hər 3 idmançımız 2 qızıl, 1 gümüş medal qazanmaqla mükafatçılar sırasına düşüb. Bundan başqa, 19-20 iyul tarixlərində keçirilən karate-do üzrə Regionlararası Azərbaycan Çempionatında iştirak edən 4 idmançımız Naxçıvana 5 medalla qayıdıb.

### *Qızların karate-do idman növünə marağı artır*

Bu idman növünə marağın gündən-günə artdığını vurğulayan federasiyanın sədr müavini idmançıların hər gün məşq prosesi keçdiyini bildirdi: "Federasiya mütəmadi olaraq idmançılarla yaxından maraqlanır. İştirak edəcəyimiz yarışlardan, turnirlərdən öncə məşqlərin sayını artırırıq. Təbii ki, belə olan zaman karateçilərin fiziki vəziyyəti də normal olur. Naxçıvanda hazırda iki qrupumuz fəaliyyət göstərir. İdmançılar gün ərzində iki dəfə məşq prosesində iştirak edirlər. Səhər saatlarında daha çox uzun müddət bu idman növü ilə məşğul olanların məşq prosesi olur. Axşamlar isə karatenin sirlərini yeni öyrənənlər məşq edirlər".

N.Quliyev qızların bu idman növünə olan marağı barədə bunları dedi: "Qızlarımızın bu idman növünə marağı çoxdur. Bizə bununla bağlı bir çox müraciətlər olub və biz onları məşqlərə cəlb etmişik. Hazırda qruplarımızda 10-dan çox qız bu idman növü ilə məşğul olur. Zamanla bu sayın artacağına inanırıq. Çünki keçirilən turnirlərdə tamaşaçılar arasında qızların çoxluq təşkil etdiyi diqqətdən yayınmır".

"Bəs uşaqlar hansı yaş dövründən sonra bu idman növü ilə məşğul ola bilərlər?" sualına Nəriman Quliyevin cavabı belə oldu: "Çalışırıq ki, uşaqlar daha erkən yaşlardan bu idman növünə maraq göstərsinlər. Bizim qruplarda istənilən yaşda olan uşaqlar var. Ancaq 7-10 yaş aralığında bu idmana gəlmək daha məqsədəuyğundur".

Sonda Nəriman Quliyev yaradılan şəraitə, göstərilən qayğıya görə muxtar respublika rəhbərinə idmançılar adından minnətdarlığını bildirdi: "Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən hər bir federasiyanın əsas məqsədi təmsil etdiyi idman növünün inkişafına çalışmaq və yüksək nailiyyətlər əldə etməkdir. İdmançılarımızın qazandığı uğur bizə göstərilən diqqətin, qayğının nəticəsidir".

**Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Babək rayonunun Şıxmahmud kənd sakini Yaqubov İlham İdris oğlunun adına olan JN-686A inventar nömrəli, 10311018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhərinin Tumbul kənd sakini Məmmədova Şəlalə Yaşar qızının adına olan JN-003A inventar nömrəli, 10307028 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Fətullayev Pərviz İsa oğlunun adına verilmiş 020015 seriya nömrəli veteran vəsiqəsi itdiyindən etibarsız sayılır.

### *Allah rəhmət eləsin*

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının rəhbərliyi və təşkilatın aparatının əməkdaşları Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Qadınlar Şurasının sədr müavini Aidə Allahverdiyevaya, qardaşı
**ARZUNUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Qızlar Liseyinin kollektivi liseyin direktoru Aidə Allahverdiyevaya, qardaşı
**ARZUNUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsinin sədri Mahmud Cəfərov və məhkəmənin kollektivi iş yoldaşları
**ARZU ALLAHVERDİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin kollektivi iş yoldaşları Sədaqət Yusifovaya, əzizi
**YUSİFİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin kollektivi iş yoldaşları İlqar Bağırova, xalası
**SONA XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının baş həkimi Rəhim Rəhimov və xəstəxananın kollektivi iş yoldaşları Ruhanə Mövləviyə, xalası
**SONA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 647